Oqtay RZA



## SƏRHƏDÇİLƏR MARŞI

Qürurumuz - müstəqil
Azərbaycan dövləti;
Ərzi gəzib dolaşır
Yurdumuzun şöhrəti.
Əzəl gündən müqəddəs
Borc bilib bu xidməti -
Keşikdəyik - quzeydə,
Şərqdə, qərbdə, güneydə;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

***

Hər sayıq, qoçaq əsgər,
Dəyanətli general
İstəyir dinc yaşasın
Bütün ölkə, el, mahal.
Sönməyən çırağımız -
Düz əqidə, saf amal.
Kəsərsizdir təxribat,
Siyasi züy də, küy də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

***

Fədakarlıq rəmzidir
Rütbə, nişan, fəxri ad;
Məntəqələr möhtəşəm,
Meydanlar - geniş, abad.
"Sağ ol" deyir Balakən,
Lerik, Qusar, Ordubad...
"Sağ ol" deyir qocaman
Babadağ da, Avey də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

***

Uğurlu təlim, sınaq,
Bürkü, külək, qar olur;
Fəqət ürəyimizdə
Qışda da bahar olur,
Casus, xəbis, riyakar
Yaxalanıb xar olur.
Canımızdan əzizdir
Quru da, su da, göy də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

## SALAM, SƏRHƏD QÜLLƏSİ!

Gəlmişik Yurdumuzun
Keşiyində durmağa,
Gəlmişik candan əziz
Torpağı qorumağa!
Himnimiz səhər, axşam
Yayılır dalğa-dalğa;
Azad Azərbaycanın
Ucalır qadir səsi.
Salam, sərhəd zolağı,
Salam, sərhəd qülləsi!

***

Yurdumuzun Yenilməz
Ordu salnaməsi var,
Onu hər gün yaşadır
Əsgərlər, generallar.
Zəfərlərə səsləyir,
Səsləyir bizi yollar.
Öndə neçə imtahan,
Neçə sınaq pilləsi...
Salam, sərhəd zolağı,
Salam, sərhəd qülləsi!

Güclərdikcə sıramız,
Çoxaldıqca səyimiz,
Sülh işinə rəvacdır
Xeyirxah istəyimiz.
Kaş quş yuvası olsun
Silahların lüləsi!
Muzeydə saxlanılsın
Bəşərin son gülləsi!
Nə qədər ki, təxribat,
Nankorluq vermir ara,
Nə qədər ki, bəd nəzər
Tuşlanıb bu diyara -
Eşitsin harayımı
Narahat Yer kürəsi:
Salam, sərhəd zolağı,
Salam, sərhəd qülləsi!

ədalət 2019.- 16-17 avqust.- S.11.